# "Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır"



**Azərbaycandan Bolqarıstana təbii qazın tədarükü üçün Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru (Interconnector Greece-Bulgaria - IGB) 2022-ci il oktyabrın 1-də istismara verilib. Hazırda onun tutumu ildə 3 milyard kubmetrdir, ancaq onun ötürücülük qabiliyyətini 5 milyard kubmetrə çatdırmaq üçün potensial var. İnterkonnektor Bolqarıstanı "Cənub qaz dəhlizi" (SGC) ilə birləşdirir və "Şaquli qaz dəhlizi"nin bir hissəsidir. Bu boru kəməri yeni mənbələrdən təbii qaza çıxışı təmin etməklə regionda enerji əlaqəsini və təhlükəsizliyi gücləndirir.**

AZƏRTAC-ın ICGB boru kəməri şirkətinin icraçı direktoru Teodora Georgieva ilə eksklüziv müsahibəni təqdim edirik.

*- Xanım Georgieva, sizcə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında hansı rol oynayır?*

- Azərbaycan uzun müddətdir ki, ICGB şirkətinin etibarlı tərəfdaşıdır və mən əminəm ki, bizim uğurlu əməkdaşlığımız daha da güclənəcək. Məlumdur ki, IGB boru kəmərinin gücünün üçdəbiri, "Şahdəniz-2" yatağından gələn Azərbaycan qazının nəqli üçün ayrılıb. Bu amil layihənin maliyyələşdirilməsinin təmin olunmasında, hələ layihə planlaşdırma mərhələsində olanda və tikintisinə başlamadan əvvəl əsas rol oynayıb. İndi interkonnektor tam kommersiya istifadəsinə verildikdən sonra biz onun, xüsusilə Bolqarıstanın enerji təchizatına müsbət təsirini açıq şəkildə görürük. Daha geniş mənada Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır, xüsusən "Cənub qaz dəhlizi" vasitəsilə təchizatların diversifikasiyasına kömək edir. Ukraynadakı müharibə qaz axınlarında və bazar dinamikasında ciddi dəyişikliklərə səbəb olub, lakin Azərbaycan etibarlı tərəfdaş kimi öz statusunu təsdiqləyib, hətta son enerji böhranı şəraitində belə uzunmüddətli müqavilələrini davamlı olaraq yerinə yetirir.

Bundan əlavə, Azərbaycanın Avropa ilə əməkdaşlığı yalnız təbii qazla məhdudlaşmır, həm də Xəzər bölgəsində külək və günəş enerjisi layihələri daxil olmaqla bərpaolunan enerji mənbələrinə yatırımlar ilə genişlənir. Bu, Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunun daha da böyüməsinə dəlalət edir. Ümid edirəm ki, Avropa İttifaqı (Aİ) təbii qaz layihələrini və bu sahədə beynəlxalq əməkdaşlığı prioritet olaraq qiymətləndirəcək. Bu, yalnız Avropanın enerji müstəqilliyini gücləndirmək üçün deyil, həm də artan Azərbaycan qazının ötürülməsi üçün optimallaşdırılmış nəqliyyat şəbəkəsinin yaradılması baxımından vacib olacaq.

*- Boru kəməri istifadəyə veriləndən bəri İGB-nin fəaliyyətini necə xarakterizə edərdiniz? İGB regionun enerji əlaqəsində hansı rolu oynayır?*

- Yunan-Bolqarıstan İnterkonnektoru hazırkı çətin şəraitdə regionun enerji təhlükəsizliyi üçün əhəmiyyətini tez bir zamanda təsdiqlədi. Boru kəməri 2022-ci ilin oktyabrında kommersiya istismarına verilib və cəmi iki ay sonra IGB Moldovaya təhlükəsiz qaz nəqli marşrutunun təmin edilməsində mühüm rol oynayıb, ölkəyə qış dövründə daxili tələbatı ödəməyə kömək edib. Bu məqsədə nail olmaq üçün Trans-Balkan qaz kəmərindən əks rejimdə istifadə edilib. Bu nümunə beynəlxalq enerji layihələrinin əhəmiyyətini əyani şəkildə nümayiş etdirir: onlar təkcə ev sahibi ölkələr üçün tədarüklərə zəmanət vermir, həm də regionun enerji əlaqələrinin gücləndirilməsinə kömək edən yeni marşrutlar açır. IGB-nin işə salınması şaxələndirilmiş təchizat marşrutlarının yaradılmasında, enerji təhlükəsizliyinin artırılmasında və tək mənbədən asılılığın azaldılmasında mühüm addımdır. Boru kəməri dərhal Bolqarıstanın Rusiya tədarükündən asılılığının azaldılmasına əhəmiyyətli təsir göstərdi, hazırda Moldova və Ukrayna da daxil olmaqla, digər regional bazarlarını təmin etmək üçün etibarlı marşrut rolunu oynayır. Bu, layihə üçün mühüm nailiyyətdir və mən ICGB komandasına onun həyata keçirilməsində göstərdikləri əzm və səylərə görə dərin minnətdarlığımı bildirirəm. İndi "Cənub qaz dəhlizi" və "Şaquli qaz dəhlizi"nin bir hissəsi kimi biz İGB-nin inkişafının növbəti mərhələsini - onun ötürücülüyünün ildə 3 milyard kubmetrdən 5 milyard kubmetrə çatdırmağı nəzərdən keçiririk.

*- ICGB genişləndirmə layihəsinin həyata keçirilməsi üçün hansı tədbirləri nəzərdə tutur? Layihənin maliyyələşdirilməsi variantlarını tapmaq üçün hansı addımlar atılır?*

- "Şaquli qaz dəhlizi" çərçivəsində regionda infrastrukturun genişləndirilməsində bazar marağını müəyyən etmək üçün digər ötürücü sistem operatorları ilə birlikdə 2023-2024-cü illərdə potensialın genişləndirilməsi prosesinə başlamışıq. Fakultativ mərhələnin uğurlu nəticələrinə baxmayaraq, məcburi mərhələ əhəmiyyətli fərqlər göstərdi. ICGB üçün bu, bazarın dəyişkənliyi və qlobal qeyri-müəyyənlik şəraitində bazar iştirakçılarının qısamüddətli həll yollarına üstünlük verdiyinə və uzunmüddətli öhdəliklər götürməyə tələsmədiyinə dair aydın siqnal idi. Bu baxımdan, biz genişləndirmə planlarını irəli sürmək üçün alternativ formatlara diqqət yetiririk və mümkün maliyyələşdirmə variantlarını fəal şəkildə müzakirə edirik. Biz yanacaqölçən stansiyalardan birinin layihələndirilməsi ilə yanaşı, təsdiq edilmiş müqavilə strategiyasına uyğun olaraq artıq texniki şərtləri hazırlamışıq və hazırda hüquqi aspektləri də əhatə edən satınalma paketini formalaşdırırıq. Bu, ICGB Müşahidə Şurası tərəfindən təsdiqləndikdən sonra genişləndirmə istiqamətində tələb olunan əsas komponentlər üçün satınalma prosesinə dərhal başlamağa imkan verəcək. Paralel olaraq, bu proses yekun investisiya qərarı üçün şərtlər müəyyən edildikdən sonra maliyyə axtarışı üçün imkanlar açacaq. Ümid edirəm ki, Aİ strateji əhəmiyyətini nəzərə alaraq bu layihəni dəstəkləyəcək. Bundan əlavə, biz ABŞ ilə əməkdaşlığa can atırıq və potensial tərəfdaşlıq imkanları barədə səhmdarlarımızla məsləhətləşirik.

*- Moldova və Ukraynaya tədarük üçün İGB infrastrukturunun strateji əhəmiyyəti nədir?*

- Bu, əvvəllər qaldırdığım bir məsələdir və ICGB üçün təməl daşı olaraq qalır. 2025-ci il yanvarın 1-dən Rusiya təbii qazının Ukrayna ərazisindən tranzitinin başa çatması ilə təsirlənən bazarlar tədarükləri diversifikasiya etmək üçün davamlı və etibarlı həll yolu tapmalıdır.

IGB boru kəməri Cənub Qaz Dəhlizinə və Aleksandrupolda yerləşən mayeləşdirilmiş təbii qazın (LNG) terminalına qoşulmanı təmin etmək, həmçinin əvvəllər tərs rejimdə istifadə edilən Trans-Balkan Boru Kəməri vasitəsilə Moldova və Ukraynaya tədarükün təşkili üçün ideal istiqamətdə yerləşir. Bu bazarların qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi regional enerji təhlükəsizliyində əsas rol oynayır. Buna görə də ICGB hər iki ölkənin qazötürücü sistem operatorlarının (TSO) "Şaquli qaz dəhlizi"nə inteqrasiyası təşəbbüsü ilə çıxış edib ki, bu da regionda infrastruktur əlaqələrinin inkişafında mühüm addım olacaq.

*- "Şaquli qaz dəhlizi" enerji landşaftının inkişafında hansı rolu oynayır?*

- Açıq desək, o, qeyri-Rusiya qazının - ilk növbədə, Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Azərbaycandan və Yunanıstandan idxal olunan mayeləşdirilmiş təbii qazın Mərkəzi və Şərqi Avropaya nəql olunmasına imkan verməklə "Cənub qaz dəhlizi"ni tamamlayır. Belə diversifikasiya Cənub-Şərqi Avropanın Rusiya qazından asılılığını əhəmiyyətli dərəcədə azaldır və geosiyasi təlatümlərlə bağlı riskləri yumşaldır. Bu, regional inteqrasiyada əsas rol oynayır, əks qaz axınını təmin edir, bazarın çevikliyini artırır və Avropa enerji landşaftının uzunmüddətli sabitliyinə töhfə verir. ICGB bu təşəbbüsü qətiyyətlə dəstəkləyir və ümid edirəm ki, Aİ "Şaquli qaz dəhlizi" çərçivəsində layihələrin həyata keçirilməsinə dəstək verməklə öz səylərini artıracaq.

*- IGB layihələri və hərəkətə gətirilən LNG anbarı (FSRU) niyə regiona qaz tədarükü üçün "yeni qapılar" kimi qiymətləndirilir?*

- IGB boru kəməri və Aleksandrupolisdəki FSRU (Üzən Anbar Birliyi) həmişə bir-birini tamamlayan elementlər kimi qiymətləndirilib. Birlikdə bunlar yeni təbii qaz mənbələrinə girişi təmin edən kompleks həll təklif edir. İnterkonnektor "Cənub qaz dəhlizi" (TAP vasitəsilə) və Yunanıstandan Bolqarıstana, sonra isə Rumıniya, Serbiya və digər qonşu ölkələrə LNG idxalını təmin edən birbaşa qaz axınını əks etdirir. Aleksandrupolisdəki FSRU əlavə LNG mənbəyi təklif edərək ABŞ, Qətər, Əlcəzair və digər ölkələr də daxil olmaqla qlobal qaz bazarlarına açılır. Bu iki infrastruktur layihəsi arasındakı sinerji başlanğıcda strateji olaraq planlaşdırılıb və bu, müttəfiq ölkələr arasında uğurlu əməkdaşlığın gözəl bir nümunəsidir. Bu, birləşərək daha çox nail ola biləcəyimizi təsdiq edir.

*- ICGB karbon emissiyalarının azaldılmasını hidrogen bazarının inkişafı kontekstində necə qiymətləndirir?*

- ICGB uzaqgörən bir şirkətdir və qarışıq hidrogenin nəqli üçün potensialı nəzərə alaraq bizim mütəxəssislər bazardakı tələbatı və inkişafı diqqətlə izləyirlər. Hazırda biz hidrogenin kiçik faizini qarışdıra bilirik, lakin həcmlər bu sərhədləri aşarsa, əlavə sərmayələr və səhmdarlarımızdan maliyyə əsaslı qərarlar tələb olunacaq. ICGB-nin əsas rolu infrastruktur təmin etmək olduğuna görə, belə layihələrin daha da inkişafı üçün bazardan dəstək və maraq lazımdır. Bu istiqamət şübhəsiz ki, bizim üçün uzunmüddətli perspektivdə maraqlı olacaq.

*- ICGB gələcəkdə yaşıl qazların inteqrasiyası üçün hansı addımları atır?*

- Hazırda bizim strateji səylərimiz güc artımı layihəsinə cəmlənib. Biz artıq satınalma strategiyasını hazırlayıb, təsdiq etmişik. Həmçinin IGB boru kəmərinin qaz ölçmə stansiyalarından birinin layihələndirilməsinə başlamışıq. Eyni zamanda, biz sistemin etibarlı gündəlik işləməsini təmin etməyə davam edirik. Hidrogen ilə bağlı olduğu kimi, biz bazar tendensiyalarını diqqətlə izləyirik və yeni imkanlar ortaya çıxdıqca onları araşdıracağıq.



Azərbaycan.- 2025.- 23 fevral (№ 41).- S.5.